http://iqtisadiforum.blogspot.com/2020/07/shiyy-nazirliyi-il-tbib-arasnda-maraq.html
**11 İyul 2020**

# Səhiyyə Nazirliyi ilə TƏBİB arasında maraq toqquşması



Səhiyyə Nazirliyi ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) arasında maraq toqquşması artıq cəmiyyətin də hiss edəcəyi həddə çatıb. Pandemiya dövründəki problemlər tərəflər arasında zidiyyətləri daha qabarıq göstərdi. Səhiyyə Nazirliyi faktiki olaraq, proseslərdən kənarda qalmış kimi görünür. TƏBİB isə təkbaşına bu işlərin öhdəsindən gələ bilmir. Eyni zamanda, bir qeyri-müəyyənlik də hökm sürür. Səhiyyə sahəsində səlahiyyət bölgüsü ilə bağlı problem yaşanır.

İllərdir icbari tibbi sığortanın tətbiqi, tibb müəssisələrinin fəaliyyəti ilə bağlı tədqiqatlar aparan İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri, "İqtisadi Forum" ekspert qrupunun üzvü, iqtisadçı **Azər Mehtiyev** “Press Klub”a Səhiyyə Nazirliyi və TƏBİB arasındakı konfliktin səbəbləri barədə  danışdı:

– Vaxtilə səhiyyə sahəsi ilə əlaqəli bütün funksiyalar Səhiyyə Nazirliyinin səlahiyyətində idi – həm səhiyyə siyasətini müəyyənləşdirirdi, həm xidmət göstərirdi, həm də xidmətə, vəsaitin ödənilməsinə nəzarət edirdi. Bütün tibb müəssisələri də Səhiyyə Nazirliyinin nəzdində idi. Bu da qarşılıqlı maraqlar konflikti yaradan hal idi. İcbari tibbi sığorta yaradılan zaman bunun aradan qaldırılması məsələsi gündəmə gəldi. İcbari tibbi sığortanın – vəsaitin ödəyicisi İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi sayılır. Vəsaitlər bu agentlik vasitəsilə müxtəlif xəstəxanalara ötürülür. Bu üzdən TƏBİB-i yaratdılar, bəzi istisnalarla əksər xəstəxanalar Səhiyyə Nazirliyinin tabeliyindən çıxarılıb, TƏBİB-ə verildi. Xidmət göstərmə, xidmətin keyfiyyətinə nəzarət və vəsaitin ödənilməsi funksiyalarını bir-birindən ayırmaq istəyirdilər. Səhiyyə siyasətinin həyata keçirilməsini isə Səhiyyə Nazirliyinə tapşırdılar. Amma prosesin gedişində məlum oldu ki, qurumlararası ciddi konfliktlər var. İcbari tibbi sığortanın tətbiqinin əleyhinə çalışanlar var. Söhbət maliyyə üzərində nəzarətdən gedirdi. Çünki səhiyyə çox böyük maliyyənin dövr elədiyi bir sektordur. Bu sektora nəzarət uğrunda mübarizə gedirdi. Pandemiyanın meydana çıxması da elə qurumlararası konfliktin kəskinləşdiyi dövrə təsadüf etdi. Koronavirus başlayandan Səhiyyə Nazirliyi tamamilə arxa planda qaldı. Faktiki, xəstəxanalarda xidmət göstərən qurum – TƏBİB həm də Operativ Qərargahda söz sahibi oldu. Siyasətin həyata keçirilməsi ona həvalə olundu. Amma biz pandemiya ilə ciddi mübarizə siyasətini görmədik. Operativ Qərargah ayrı-ayrı addımlar atır, nəticələrini gözləyir, səhv olanda addımlarını dəyişir. Bu baxımdan hazırda ölkədə nə Səhiyyə Nazirliyinin, nə də TƏBİB-in fəaliyyətini müsbət qiymətləndirmək mümkün deyil. Çünki virusla mübarizədə biz uğur görmürük.

**– TƏBİB-in mütləq ayrıca bir qurum kimi yaradılması zəruri idi, yoxsa bu işləri Səhiyyə Nazirliyinin nəzdində də həyata keçirmək mümkün olardı?**

– O zaman bəyan elədilər ki, TƏBİB keçid dövrü üçün yaradılıb. Xidmət göstərmə funksiyasıyla xidmət haqqının ödənilməsinə nəzarət funksiyasını ayırmaq istəyirdilər. İcbari tibbi sığortanın yaradılması dövlət tibb müəssisələrinin hər birinin müstəqil büdcəyə keçirilməsini tələb edir. Yəni onların hər birinin ayrıca hesabı olmalı, hər biri ayrıca idarə edilməlidir. Onlar da vəsaiti İcbari Tibbi Sığorta Agentliyindən almalıydılar. Xidmət göstərmə funksiyası ilə xidmətin keyfiyyətinə nəzarət funksiyası ayrılmalıydı. Bunu birdən-birə eləyə bilmirdilər. Ona görə dedilər ki, keçid dövrü üçün

hələlik TƏBİB yaradılır, bu qurum xəstəxanaların hər biri üçün ayrıca hesabın açılması, onların yeni şərtlərlə idarə olunması işlərinə baxacaq. Yeniliklər mənimsənilənə qədər onları idarə edəcək, bir müddət sonra TƏBİB ləğv olunacaq, tibb müəssisələrinin hər biri müstəqil fəaliyyət göstərəcək. Sanki keçid dövrü üçün islahat addımı idi. Belə izah eləmişdilər. Amma biz görürük ki, TƏBİB Səhiyyə Nazirliyinin funksiyasını təkrarlamaqla məşğul oldu.

**– Faktiki, ölkədə eyni işi görən iki qurum mövcuddur. Bu islahatları elə Səhiyyə Nazirliyinin daxilində aparmaq, mümkün deyildimi? Uzun illərdir ki, Səhiyyə Nazirliyindən, bu qurumun rəhbərliyindən ciddi narazılıqlar var.**

– İndiki halda rəhbərliyin dəyişməsi heç nəyi dəyişməyəcək. Əgər söhbət ölkədə səhiyyə sahəsində vəziyyətin düzəlməsindən yox, maliyyəyə nəzarət uğrunda mübarizədən gedirsə, bir adamı çıxarıb, yerinə başqasını təyin etməklə heç nəyə nail olmaq mümkün deyil. Yenə də kiminsə maraqlarına uyğun bir şəxsi qoyacaqlar. Son vaxtlar da görürük ki, şəxslərin dəyişməsi siyasətdə, proseslərdə dəyişikliyə gətirib çıxarmır. Əvəz olunanlar da əvvəlkilər kimi göstərişləri yerinə yetirir. Problem odur ki, bizdə heç bir sahədə həmin sahənin həvalə olunduğu şəxslər müstəqil təşəbbüs göstərmək iqtidarında deyil. Bütün hallarda "yuxarıdan" göstərişlə işləyirlər. O cümlədən də səhiyyə sahəsində. Göstəriş əsasında addım atırlar və həmin addımlar fayda verməyəndə başqa bir qərarla əvəzləyirlər. Deyir ki, "prezidentin göstərişi ilə filan addımı atdıq". Prezident səhiyyə sahəsi üzrə mütəxəssisdir ki, hansısa göstəriş versin? Son mətbuat konfransında Ramin Bayramlı dedi ki, Azərbaycanda bütün vətəndaşlar ölkənin səhiyyəsindən və həkimlərindən razıdır. Hansı tədqiqat əsasında bunu deyir? Bunu əvvəllər qocalar söyləsəydi, deyərdik ki, sovetdən qalma sistem üzrə hərəkət edir. Bunu söyləyən adam xaricdə təhsil alıb. Hansı araşdırma nəticəsində belə qənaətə gəlib? Məsuliyyətsizlikdir.

**– Belə çıxır ki, TƏBİB-lə Səhiyyə Nazirliyi arasındakı maraqlar konfliktinin ağrısını vətəndaşlar çəkir.**

– Təkcə TƏBİB məsələsi deyil. İcbari Tibbi Sığorta Agentliyi ilə Səhiyyə Nazirliyi arasında da bu vardı. Ümumiyyətlə, bu gərginlik icbari tibbi sığorta islahatları başlayandan var və hələ də davam edir.

**– TƏBİB-in funksiyalarının alınıb, yenidən Səhiyyə Nazirliyinə qaytarılacağı ehtimalı da səslənir. Bunu mümkün hesab edirsinizmi?**

– Bizdə hər şeyi yerbəyer etməyə ehtiyac var. Əvvəla, səhiyyə siyasətini işləyib hazırlamaq Səhiyyə Nazirliyinin işidirsə, onlar eləməlidir. TƏBİB-in funksiyası xəstəxanaların idarə olunmasına nəzarət etməkdir. Öz işi ilə məşğul olsun. TƏBİB səhiyyə siyasəti müəyyənləşdirəcək qurum deyil. Ən azı, indiki sistemdə belə görünür. TƏBİB-in yenidən Səhiyyə Nazirliyinə qaytarılması islahatlardan geri çəkilmə olardı. Məncə, heç bir halda, islahatlardan geri çəkilmək olmaz. Daha dəqiq bir islahat xətti ilə icbari tibbi sığortaya keçid baş verməlidir. Bu proses də mümkün qədər sürətləndirilməlidir.

**"Press Klub"a verilən müsahibənin linki:**

https://pressklub.az/ekskluziv/s%C9%99hiyy%C9%99-nazirliyi-il%C9%99-t%C9%99bib-arasinda-maraq-toqqusmasi/